# Bayraq Vətən timsalıdır

**Azərbaycan Yazıçılar Birliyinin Natəvan klubunda Bayraq Günü münasibətilə çap olunmuş "Bayraq. Hekayələr toplusu" kitabının təqdimatı keçirilib.**




Azərbaycan Yazıçılar Birliyinin üzvü, yazıçı Əli bəy Azərinin tərtib etdiyi topluya daxil edilmiş hekayələr süjet və məzmun müxtəlifliyi ilə seçilsə də onları ümumi bir ruh–Azərbaycan əsgərinin bayraq sevgisi, azad edilmiş ərazilərin ən hündür yerlərinə bayraq sancılmasının qeyri-adi sevinci, bayrağın döyüşə çağırış və qələbə timsalı olması ilə bağlı duyğu-düşüncələr birləşdirir.

Mərasimdə çıxış edənlər üçrəngli dövlət bayrağımızın əks etdirdiyi uca məfkurədən, onun keçib gəldiyi şərəfli mübarizə yolundan, Vətən müharibəsində qazandığımız tarixi Zəfərin rəsmiləşdirilməsində bayraq təntənələrinin rol və önəmindən danışıblar. Bildirilib ki, dövlət bayrağımız yeni nəsillərin yurd sevgisi ilə tərbiyələndirilməsi işində dərin məna yükü daşıyır.

Təqdim olunan 22 hekayədən ibarət toplu da məhz milli bayrağın dəyərini, daşıdığı məna-mahiyyəti geniş oxucu kütləsinə bədii səpkidə çatdırmağa xidmət edir. Topludakı əsərlər hər bir qələbənin bayraqla başlanıb bayraqla bitməsini anladır, zəfər duyğularını obrazlı şəkildə təcəssüm etdirir.

***R.TAHİR, "Xalq qəzeti"***

Xalq qəzeti.- 2022.- 11 noyabr.- S.13.